*Zeynab Mehdiyeva*
*Pedaqogika və psixologiya*
*kafedrasının baş müəllimi*

# Məktəbəqədər yaşlı uşaqlarda həyati bacarıqların formalaşdırılması

Uşağın məktəbdəki uğurlu təhsili, şəxsiyyət kimi formalaşması, ictimai həyatda iştirak etməsi məktəbəqədər dövrdə qoyulmuş təməldən əhəmiyyətli dərəcədə asılıdır. Məktəbəqədər yaş uşağın fəal sosiallaşması, mədəni vərdişləri mənimsəməsi, mənəvi və estetik hisslərin oyanması dövrüdür və qrup şəraitində böyüklər və yaşıdları ilə hərətərəfli ünsiyyət qurmaq və ünsiyyət bacarıqlarını inkişaf etdirmək imkanı əldə edir.

Məktəbəqədər yaşlı uşaqlarda həyati bacarıqlar qazandırmaq üçün müxtəlif məşğələlərin tədrisində aktual mövzular kifayət qədərdir. Bu məşğələlərin tədrisində uşaqların kollektiv fəaliyyətin zəruriliyi, ailə büdcəsinin təşkili, pul vahidləri, dövlət rəmzlərimiz, uşaqların hüquqları ilə bağlı zəruri həyati bacarıqlar qazandırmaq üçün elmi, pedaqoji, metodik ideyalar vardır.

Lakin bugün haqqında danışacağım mövzu həyati bacarıqların məktəbəqədər yaşlı uşaqlarda necə formalaşdırılması, yəni, tərbiyəçi- müəllimlər tərəfindən verilən biliklərin bacarıqlar şəklində necə tətbiq edilməsidir. Bu prosesi həm pedaqoji, həm də psixoloji cəhətdən diqqətinizə çatdırmaq istəyirəm.

İnsan üçün hiss etdiyi hər yeni məlumat zövq verir. Bunu qısaca, “öyrənməkdən doğan həzz” adlandıra bilərik. Uşaqlar da öyrənməkdən zövq alırlar. Məktəbəqədər yaşlı uşaqlarda öyrənməyi öyrətmək isə tərbiyəçilərin üzərinə düşür.

Bir pedaqoq olaraq hər bir tərbiyəçi çalışmalıdır ki, uşaqlar məşğələ zamanı susmasınlar, öz fikirlərini ifadə edə bilsinlər. Hər bir uşaq təlim prosesində fəal iştirak etməlidir. Bu uşaqlarda həm nitqin, həm təfəkkürün inkişafına, həm də yoldaşları qarşısında öz sözlərinə və hərəkətlərinə görə məsuliyyət hissinin dərk olunmasına təkan verir, onlarda təhliletmə, qiymətləndirmə kimi bacarıqlar formalaşır.

Məşğələdə tam sükut yolverilməzdir. Tərbiyəçilər uşaqlara sual verməli, öz fikirlərini səsləndirmək, sübut, mübahisə, “kəşf” etmək üçün şərait yaratmalıdırlar. Uşaqların yeni kəşfləri onlarda sevinc, fərəh doğurur, dərketmə təlabatı formalaşdırır.

Uşaqların cavablarında orjinal cəhətlər tapmaq lazımdır ki, özümüzün proqramlaşdırılmış cavab variantlarına əsaslandırmamalıyıq.

Məşğələlərin təşkilində oyuna daha çox üstünlük verilməlidir. Bildiyimiz kimi 5 yaşına qədər uşaqların əsas fəaliyyəti növü oyundur. Məhz uşaqlarda həyati bacarıqların formalaşmasında rollu oyunların çox böyük əhəmiyyəti vardır. Məşğələ zamanı rollu oyunlardan istifadə edərkən uşaqlar yalnız mövzu lə bağlı yeni məlumatlar əldə edirlər. Məşğələ zamanı keçirilən mövzularda uşaqlara həyati bacarıqları qazandırmaq üçün rollu oyunlardan istifadə edilmir.

Rollu oyunlar zamanı uşaq yalnız oyuna fokuslanmaqla qalmamalı, eyni zamanda hansı situsaiyadan necə istifadə etdiyini də dərk etməlidir ki, bu da müəyyən bacarıqların formalaşmasına gətirib çıxarsın.

Rolların müəllim tərəfindən verilməsi bəzən şagirdlərin yaradıcı fəallığını boğur. Yaxşı olardı ki, imkan daxilində rolların seçilməsini uşaqlara tapşırılsın, bu daha çox faydalı olacaqdır. Çalışmaq lazımdır ki, rollar üzrə oyunlar uşaqların yaradıcı fantaziyasını, tənqidi təfəkkürlərini ümumi inkişafını təmin etsin.

Rollu oyunlar zamanı uşaqlarda sosial bacarıqlar da formalaşır. Bəs sosial bacarıqların uşaqlar üçün hansı faydaları var:

1. Uşaqlarda özünəəminlik, müstəqil işləmək, sərbəst qərarlar qəbul etmək potensialı yüksək olur;
2. Öz yoldaşları və müəllimləri ilə düzgün münasibət qura bilir;
3. Sosial məsuliyyət anlayışını ( yardımlaşma, bölüşmə, qaydalara riayət etmək və s.) anlayır və əməl edir;
4. Özünü idarəetmə bacarıqları (emosiyalarını tənzimləmək, tənqidə və tənbehə dözümlü olmaq və s.) formalaşır.

Oyun zamanı uşaqlarda çoxlu suallar yarana bilər. Məsələn, nəzakət və davranış qaydaları mövzusunda oyun təşkil etmisiniz. Müəllimlə uşağın dialoquna nəzər salaq. “Biz etik qaydalara əsasən öz qohumlarımız və tanışlarımızla salamlaşmalıyıq. Onları gündə bir neçə dəfə gördükdə gülümsəmək də kifayət edər. Qarşılıqı hörmət olan yerdə yaşamaq və işləmək də asan olur. Bəs bağçaya gələndə yoldaşlarınızla, müəllimlərinizlə,

yaxud evə gedərkən valideynlərinizlə necə görüşürsünüz?" Bu məlumatlarla uşaqlara salamlaşma mədəniyyətini nümayiş etdirdiniz. Ondan da belə davranış tələb olunduğunu sezdirdiniz. Təbii ki, uşaqlarda suallar yaranacaq. Etik qaydalar nədir? Onları kim fikiləşib? Bu qaydalara əməl etməsək nə olar ki? Uşaqların suallarını cavablandırmaq lazımdır. Lakin təbii ki, uşaq tərəfindən elə suallar verilir ki, cavab verə bilmirik. Bu zaman belə təklif olunur ki, uşağa cavabı bilmirəm demək yerinə, "mən bu barədə heç fikirləşməmişdim. Gəl cavabı birlikdə axtaraq".

Burada əsas məsələ odur ki, uşaq salamlaşma haqqında məlumat alsın və nümunələr əsasında bu bacarıqlara yiyələsin.

Uşaqlara nə düşünmələri deyil, necə düşünmələri öyrədilməlidir. Məktəbəqədər yaşlı uşaqların gələcəkdə daha yaxşı öyrənmələri üçün zehni potensialını inkişaf etdirməsi baxımından bu çox önəmlidir.

Uşaqlara eyni nağılı bir neçə dəfə oxumağın bir neçə faydaları vardır. Uşaqların söz ehtiyyatı artır, dili daha tez mənimsəyir, sözlərin daha dəqiq ifadə olunmasını öyrənir, sözlər və hadisələr arasında məntiqi əlaqəni anlayır, onların anlama qabiliyyəti artır.

Burdan belə bir nəticə çıxara bilərik ki, tətbiq və təkrar oxuduğumuz nağılı uzun müddət yadda saxlamağa kömək edir. Lakin, monoton təkrarın mənfi təsiri var. İnsan tez-tez rast gəldiyi eyni şeylərə əhəmiyyət vermir.

Nəticə olaraq qeyd edə bilərik:

1. Uşaqlarda möhkəm bilik və bacarıqlar formalaşdırmaq üçün keçirilən materialı oyun fəaliyyətində tətbiq etmək lazımdır. Rəngərəng təkrar uşaqlarda beyinin inkişafına müsbət təsir göstərir.
2. Uşaq bağçalarında həm öyrədici, həm də inkişaf etdirici təlim mühiti yaratmağa vaxt ayırmaq lazımdır. Çünki, insan beyninin ən yaxşı öyrəndiyi dövr həyatının ilk illəridir. Lakin buna baxmayaraq, insan beyni həyatın hər yaşında öyrənməyə açıqdır. Sadəcə ilk bir neçə il ərzində öyrənmə prosesi daha surətlə gedir və az əmək sərf olunur.
3. Buna görə də "bu uşağın bazası yoxdur" deyib, kənara çəkilmək olmaz. Hər yaşda uşağı öyrənməyə cəlb etmək mümkündür.

Uşağın inkişaf prosesində yeganə çatışmadığı onun həyat təcrübəsidir. Tərbiyəçilərin etməli olduğu əsas məsələ isə uşağa hələ də tanış olmadığı həyat haqqında rəhbərlik etməkdir.

Belə ki, böyüklərdə olduğu kimi uşaqlarda da "mən"iin iki tərəfi var. Biz bunların ilkinə şüur, məntiq və təfəkkürü, ikinci yere isə emosiya və şüursuz reaksiyaları qoya bilərik. "Mən"in birinci tərəfi etməli olduğumuz qərarları qəbul edir. Düzgün qidalanmaq, səhər idmanı və s. İkinci tərəf isə əsasən rahatlığa, yeniliyə, xoşagələn şeylərə maraqlı olur. telefonla oynamaq, sağlam qidalanmamaq, və s. Uşaqlarda "mən"in qeyd etdiyim ikinci tərəfi daha aktiv olur. Bu iki tərəf uşağın "mən"ində daim mübahisə halındadır. Uşaq bu prosesə öz xoşu ilə qoşulmasa "mən"in birinci tərəfi heç vaxt qalib gələ bilməz.

Tərbiyəçinin nəzarəti altında bilik və bacarıqların qazanılmasına uşaq öz xoşu ilə qoşulmasa bu proses qısa müddətli olacaq.  Bu prosesin uğurlu olmasının bir çox yolları vardır.

1. Uşaqlarda maraq oyatmaq lazımdır. Məşğələ zamanı keçirilən mövzuları hekayə şəklində uşaqlara təqdim etmək daha yaxşı nəticə verər.
2. Məşğələni elə qurmaq lazımdır ki, uşaq özünü bacarıqlı hiss etsin. Bu zaman rollu və sujetli- rollu oyunlardan istifadə etmək olar. Çünki oyun uşaqlar üçün əvəzedilməzdir.
3. Məşğələnin nəticəsini uşaqlara hiss etdirmək. Bu zaman uşaqlar qazandıqları bilik və bacarıqların onların həyatı üçün əhəmiyyətini dərk edəcəklər.
4. Uşaqlara maraqlı suallar ünvanlamaq.
5. Uşaqlar arasında əməkdaşlıq yaratmaq. Bu zaman uşaqlarda iradi diqqət möhkəm olduğu üçün təlim nəticələri də yüksək olur.
6. Taktik stimullar verin. Məsələn, qoxumaq, dadmaq və toxunmaq. Bütün əşyalardan istifadə etmək olar. Taktiki stimulları daha yaxşı olar ki, təbiətlə təmasda öyrənsinlər.

Beləliklə, uşağın diqqətini çəkə biliriksə anlamanı asanlaşdırırıq. Anlayaraq öyrənilmiş material informasiyaya, sonra biliyə çevrilir. Bilik də öz növbəsində bacarıqların formalaşmasına gətirib çıxarır.

Məktəbəqədər təhsilin kurikulumunun tələbi də budur ki, cəmiyyətdə gedən proseslərə uşaq reaksiya verə bilsin. Özünü sərbəst hiss etsin, fikrini müstəqil izah edə bilsin. Yəni, bu, o deməkdir ki, uşaq harada olursa olsun, hansı bir problemlə qarşılaşırsa qarşılaşsın, o bunun öhdəsindən özü gələcək. Özü də heç kəsin köməyi olmadan. Uşaq çevik olmalıdır. Bütün məşğələlərdə bilik və bacarıqları tətbiq etməyi bacarmalıdır. Əvvəllər təhsil biliyə yönəlmişdisə, indi biliklərlə yanaşı, həyati bacarıqlar da əsas götürülür. Müasir tələb budur ki, müstəqil həyatda ona aid olan nə varsa, uşaq ona yiyələnməyi bacarmalıdır.